# Mobil Tətbiq Təhlükəsizliyi

Rabitəbank

## Mobil tətbiqdən qeydiyyatdan keçərkən aşağıda qeyd olunan məlumatlar heç kəslə **PAYLAŞILMAMALIDIR :**

-Kartın ön hissəsində yerləşən 16 rəqəmli nömrə və arxa tərəfində yerləşən CVV təhlükəsizlik şifrəsi;

-Qeydiyyatdan keçən zaman SMS məlumat şəklində mobil tətbiqinizə gələn birdəfəlik şifrə (OTP);

-Şəxsiyyət vəsiqəsinin üzərində yerləşən eyniləşdirmə nömrəsi (FİN);

-Müştəri məlumatları (ad, soyad, doğum tarixi və məxfi söz).



Qeyd olunan təhlükəsizlik addımlarına əməl edilmədikdə digər şəxslərin sizin hesaba daxil olaraq hər hansı əməliyyat apara bilməsinə şərait yaradır. Lakin yuxarıda göstərilən məlumatlar hər hansı şəkildə paylaşılmış olduğunda aşağıda qeyd olunan tədbirlər görülməlidir:



- Mobil tətbiqə özünüz daxil olmalısınız. Bu zaman tətbiq avtomatik olaraq digər cihazdan çıxacaqdır;
- Kartın üzərində qeyd edilmiş nömrə ilə əlaqə saxlamalısınız: 133 və ya (+99412) 598-44-88;
- Bankın filial və ya baş ofisinə yaxınlaşmaqla.

**Rəqəmsal məhsullardan (kompüter, planşet, mobil) istifadə edilən zaman aşağıda göstərilən təhlükəsizlik tədbirlərinə diqqət edilməlidir:**

- Cihazın şifrəsini paylaşmamalı;
- Təhlükəli veb-saytlarda kartlarını istifadə etməməli (istifadə edilməməli http://), (istifadəsi təhlükəsiz olan https://);
- Bank hesabının yaradılmasında istifadə edilən şifrənin veb-saytlarda istifadə edilməməsi;
- Cihazda virusun və ya kompüterə asanlıqla daxil olma imkanı verən proqram tətbiqlərdən olmamasına əmin olmaq;
- Rəqəmsal cihaza lisenziyası olmayan proqram təminatının yüklənməməsi;
- Kartınız bağlı olduğu e-mail ünvanına və ya internet bankçılığı istifadə etdiyiniz cihazı, istifadə etdiyiniz zaman əmin olmadığınız mənbədən daxil olan linkə daxil olmamaq;
- Cihazda şübhəli hallar olduqda kartı cihazdakı tətbiqdən blok edərək tətbiqi həmin cihazdan silmək tövsiyyə olunur;
- Əgər yuxarıda qeyd olunan hallar qeyri-iş vaxtı baş veribsə, mobil tətbiqə daxil olmaqla təhlükəsizlik bölümündən kartı bloklamaq lazımdır.

# Aşağıdakı hallarda hesab məlumatları ötürülməsi qəti qadağandır:

- Telefon vasitəsi ilə əlaqə saxlanılaraq bank və ya dövlət qurumu nümayəndəsi olduğunu bildirən şəxslər kart məlumatını istədikdə;
- Xarici vətəndaşlığı olan şəxslərə pul göndərilməsi və ya qəbulu üçün  müştəri məlumatlarını (ad, soyad, ŞV məlumatları, kartın CVV kodunu və doğum tarixi və s.) paylaşmaq təhlükəlidir.

